*(Əvvəli ötən sayımızda)*

### AY DƏDƏ CAMAL

Sən təmiz yaşadın, dağlar qarı tək,
O qədər zərifsən, o qədər kövrək,
Köksündə döyünür, nurlu bir ürək,
Adın mübarəkdi, ay Dədə Camal!
Hamıya gərəkdi, ay Dədə Camal!
Var-dövlət yığmadın, sərvət yığmadın,
Halal çörək yedin, haram qoymadın,
Həmişə, hər zaman qalacaq adın,
Adın mübarəkdi, ay Dədə Camal!
Hamıya gərəkdi, ay Dədə Camal!

*28 may 2013-cü il*

### İNDİ DOST İTİRƏN VAXTIMIZ DEYİL

*(Tələbə dostum, Tbilisi Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Valeh Hacıyevə.)*

Hərdən sözün düşür, söhbətin düşür,
Olandan, keçəndən qeybətin düşür,
Nədən ərk yerləri bizdən gen düşür?
İndi dost itirən vaxtımız deyil.
O illər çox şeydə sınadı bizi,
Göylərə ucaltdı qanadı bizi.
Kimlərsə arada qınadı bizi,
İndi dost itirən vaxtımız deyil.
Yad edək əllərdən tutan günləri,
Ömrün bir küncündə itən günləri,
Bir az da yaşayaq ötən günləri,
İndi dost itirən vaxtımız deyil.
Bu ömür yolunda eniş-yoxuşlar,
Sevinclə kədərin qovşağı yaşar.
Taleyin qəribə təzadları var-
İndi dost itirən vaxtımız deyil.
Zaman sığal çəkər qara saçlara,
Ümidlər sığınar gələn bahara.
Eh, bu giley hara, 'küskünlük hara?
İndi dost itirən vaxtımız deyil.
Səni çaşdırmasın bu giley, güzar,
Damladan bulanmaz büllur bulaqlar.
O illər astaca bizə pıçıldar:
İndi dost itirən vaxtımız deyil.
İndi dost itirən vaxtımız deyil.
Həyatda nəyisə qazana bildik,
Mənasız günləri ömürdən sildik.
Bir vaxtlar oldu ki, çörəyi böldük,
İndi dost itirən vaxtımız deyil.
Sığallı sağlıqlar günbəgün artar,
Kimsə bu axarda mənsəbə çatar.
Qədəhlər altında çox məna yatar,
İndi dost itirən vaxtımız deyil.
Bəzən ağır olur vəzifə yükü,
Dəyişir tərəzi, dəyişir çəki.
Gözünüz çox şeyi görür hələ ki,
İndi dost itirən vaxtımız deyil.
Hanı sudan gələn sürməli qızlar?
Bir sarı sim üstə sevgimiz sızlar.
Düşdü pərən-pərən ürkək ulduzlar...
İndi dost itirən vaxtımız deyil.
Uçdu yuvasından xınalı kəklik,
Döydü qəlb evini tənhalıq, təklik.
Həyatda çox şeyi tapdıq, itirdik,
İndi dost itirən vaxtımız deyil.
"Nüşabə", "Əcəbə" qafiyəsində
Təmizlik, gözəllik qiyafəsində
Bu günün "Vağzalı" təntənəsində
İndi dost itirən vaxtımız deyil.
O illər çox şeyi hələ də gizlər,
Daha ciblərini nəvən təmizlər.
Məni də bir oğul, qız toyu gözlər, .
İndi dost itirən vaxtımız deyil.
Sağ olsun övladlar-yanan çıraqlar,
Dünəndən bu gündən nəsə soraqlar.
Bir az da əzaba dözər ayaqlar,
İndi dost itirən vaxtımız deyil.
Yurda dayaq olar Oğuz birliyi,
Qorqud müdrikliyi, Ağ üz birliyi.
Bizə çox gərəkdir ağız birliyi,
İndi dost itirən vaxtımız deyil.
Bu söz-sov vaxtını çox ala bilər,
Giley də, güzar da çoxala bilər.
Elmi dərəcələr çox ola bilər,
İndi dost itirən vaxtımız deyil.
Eşqinlə dayaq ol el-obaya sən,
Həmişə, hər yerdə o yurda güvən.
Borçalı da Vətən, Bakı da Vətən,
İndi dost itirən vaxtımız deyil.

*"Dünyanın səsi" qəzeti,*
*Yanvar, 2003-cü il, №9 01*



## *Dilsuz MUSA*

# ÜLKƏR

### QABROVO

İnsanlar qüssədən, qəmdən uzaqdı,
Ürəklər fərəhlə dinər bu yerdə.
Bura elə məkan, elə oylaqdı,
Gülüşə bələnər çöl də, çəmən də.
Burda hər dodağa təbəssüm qonar,
Kədərin bu yerdə boynu bükülər.
Bəlkə bu anlamda bir həqiqət var:
Burda torpağa da gülüş əkilər.
Dünyaya gülüşlə gələr körpələr,
Tanrı uca tutar sevən kəsləri.
Hələ çox möhtacdır xoş sözə bəşər,
Bəzəyər qəlbləri gülüş səsləri.
Burda təbəssümdən toydu, büsatdı.
Burda bir-birindən hamı halıdı.
Qabrovo - dünyanın gülüş paytaxtı,
Qabrovo - Şəkinin bir filialıdı.

*Bolqariya, Qabrovo şəhəri,*
*05 mart 1987-ci il*

### TƏK ÇİNAR

*(Norveçdə İraqdan gəlmiş Dəmirçi Mustafa adlı bir Kərkükü mü-hacirlə tanış oldum. Təklikdən gileyləndi, doğma yerləri xatırladı. Əlindən bir iş gəlmədiyinə təəssüfləndi. Kimlərisə qınadı. Oxuculara təqdim etdiyim bu şeir məhz həmin təəssüratların nəticəsindən yarandı.)*

Dəmirçi Mustafa oddan yoğrulub,
Elə bu odla da qəlblərdə qalıb.
Özü Kərkük adlı eldə doğulub,
İndi Norveç onun məskəni olub.
Doğmaları yada düşər - üşənər,
Bu ayrılıq havasına dözəmməz.
El oğlunun ayağına döşənər,
Qəriblikdə ürəyincə gəzəmməz.
Torpağına, havasına uçunar,
Xəyallarda yal-yamacı dolaşar.
Qərib eldə öz kürkünə sığınar,
Bu yerlərə çox çətin ki, alışar.
Yad diyarda tənha bitən çinardı,
Kölgəsi yox heç kimsəyə bu yerdə.
Ürəyini məşəl edib qopardı,
Tablaşaraq hər əzaba, hər dərdə.
Bütövlüyə gedən yolu aradı,
Yol bilməzdən yol istədi Mustafa.
Kimlərisə qamçıladı, qınadı,
El satandan el istədi Mustafa.
O zamandan yol üstədi Mustafa.

***Norveç, Bergen şəhəri,***
***01 avqust 1989-cu il***

* * *

Çəkinin bəd işdən, bəd əməllərdən,
Dünya bir sınaqdır, hamıya bəlli.
Alın könülləri, tutun əllərdən,
Barı bunlar olsun bizə təsəlli.
Beləcə dünyanı tərk edir insan,
Ömrün mənasını çox vaxt duymadan.
Kiməsə, nəyəsə şəkk edir insan,
Ömürdən doymadan, gündən doymadan.

*16 may 2013-cü il*

### BİLMİRƏM

*Dədə Şəmşirin əziz xatirəsinə*

Kəlbəcərin dağlarında duman var,
Sənsizləşən, kövrəkləşən güman var,
Güllü nənə, Şəmşirini uman var,
Bu istəyi nahaqdımı, bilmirəm?!
O gecikən qonaqdımı, bilmirəm?!
Dəli dağım, Qoşqarımdı qanadı,
Tərtər təbi çoxlarını sınadı,
"Ceyran bulaq" gözü yolda sonadı,
Bu bulaqdan keçəsimi, bilmirəm?!
Buz suyundan içəsimi, bilmirəm?!
Görməyəydik kaş ki, dərdi, səri də,
Köç eylədi ərənlərin piri də,
Bir saz ola bu möhnəti əridə,
Heyrətimin nidasımı, bilmirəm?!
Bu harayım çatasımı, bilmirəm?!
Bu hikməti kimlər duyub, biləndi,
Aylar, illər ələk kimi ələndi,
Dünyamız da ağ-qaraya bələndi,
Bu talemi, qəzadımı, bilmirəm?!
Yoxsa rənglər təzədimi, bilmirəm?!
İstəyini ürəyinə salan var,
Bulud-bulud boşalan var, dolan var,
Ana Torpaq, Şəmşir adlı balan var,
O kükrəyən sinəsimi, bilmirəm?!
Pərdə-pərdə dinəsimi bilmirəm?!

*"Azərbaycan" poeziya almanaxı,*
*1986-cı il, №1*

### QADAM ALIM

*(Aşıq Hüseyn Saraçlıya.)*

Könlümə bir dəli nəğmə düşübdü
Köklə, telli sazı, çal, qadan alım!
Söhbətin mizraba, telə düşübdü,
Nəğmənlə könlümü al, qadan alım!
Elə dindir, elə çal ki, "Dilqəmi",
Uzaq düşsün ürəyindən el qəmi.
Xan Əsliyə həsrət qalan Kərəmi
Qovuşdur vüsala gəl, qadan alım!
"Göycəgülü" gül içində bir inci,
Sazında, sözündə elin sevinci.
Altmış getdi, indi gələr neçənci?
Yüzü də kəməndə sal, qadan alım.
"Cəngi" səsi-neçə əsrin inadı,
Babamın namusu, qeyrəti, adı.
"Gözəlləmə" - elin eşqi, muradı,
Bu şirin vüsala çal, qadan alım!
"Kərəmi"dinəndə oda yanıram,
"Naxçıvanı" qəlbə həmdəm sanıram,
Hüseyn əmi, səni tez-tez anıram,
Yolunu Tərtərdən sal, qadan alım!

*"Qızıl bayraq" qəzeti,*
*12 iyun 1976-cı il*

### SAZINDA

*(Aşıq Hüseyn Saraçlıya.)*

Qəlbimdə simlərin harayı qalıb,
Dünənim dil açıb dinər sazında.
Əsli ağlar dərdli-dərdli sızlayıb,
Mahmud Kərəm olub yanar sazında.

"Kərəmi" çal, Hüseyn Əmi, "Kərəmi"!
Dağla yenə dilim-dilim sinəmi!
Ərzurumda donub qalan Lələmi?!
Namərdi, nakəsi qınar sazın da.
Vətən ocağının külünə qurban,
"Yurd yeri"di yurdum, yuvam binadan.
"Qaraçı" çal, keçim eldən, obadan,
Gör könlüm nələri anar sazında...
Hər xalın qəlbimdə bir işıq olub,
Ömrümə nur olub, yaraşıq olub,
Sözünə-sovuna el aşiq olub,
Ozanlar nəğməyə dönər sazında.
Dilsuz bu eşq ilə kükrəyər, coşar,
Köksündə Kür çağlar, Araz qovuşar.
Bəmində, zilində ömrüm alışar,
Qovrular hisslərim, yanar sazında.

*"Azərbaycan "jurnalı №197,*
*2013-cü il*

### BU TORPAĞIN ÜZÜ NİYƏ SOYUQDUR?

*(Döyüş zamanı cəbhədə həlak olmuş bir əsgər ailəsinə.)*

***"Ağacda xəzəl ağlar,***
***Dibində gözəl ağlar,***
***Belə oğlu ölənlər***
***Sərgərdan gəzər ağlar".***
**"Xalq" bayatılarından**

Qara yellər qan eylədi o gündə,
Zalım fələk arzu, kama çatıbdı.
Ayaq saxla, bu məzarın önündə
Ayaz adlı bir növcavan yatıbdı.
Oğul deyib göynər yazıq anası,
Qohum-qardaş yana-yana ağlayar.
Dərdli köçdü bu dünyadan atası,
Bacıları neçə qara bağlayar.
Qızılgülün qönçəsini üzmədi,
Nakam eşqi nisgillənər, saralar.
Bu Vətəni bir doyunca gəzmədi,
O tay-bu tay Arazımı haraylar.
İstəyini ürəyində qoyubdur,
Oğul gedib, ata gedib bəxti qan.
Bu torpağın üzü niyə soyuqdur?
Dağ çəkibdir dağ üstündən, ay aman!

### TƏBRİZLİ QIZ

Gözlərində günəş doğar,
Sən çadraya bürünsən də.
De, nədir könlünü sıxar
Belə pünhan görnüşündə?
Cənub, Şimal həsrətimi
Neçə illər yoldaş sənə?
O illərin axarında
Mən də olum sirdaş sənə.
"Gülüstan"ın gül bitirməz,
Bitirsə də bölük olar.
Tale bütöv bəxt gətirməz,
Dərd dünyandan böyük olar.
Sara Xatun xiffətimi
Üreyini yaxır belə?
Xətainin qüdrətimi
Gözlərindən baxır belə?
Ümidini itirmə sən,
Qılınc qında qalan deyil.
Sabahımın Tomrisisən,
Babəklərin ölən deyil.
Təbrizli qız, illər boyu
Qəlb evində qəm daşıdın.
Kirpiyilə od götürdü,
Neçə-neçə həmyaşıdın.
Bir gün Araz suları da
Eşqin ilə bütövləşər.
Sənin Vətən məhəbbətin
Ürəklərdə heykəlləşər.

### GÖRDÜM

Çoxdur bu dünyanın fitnəsi, feli,
Nə qədər dağılmış xaniman gördüm.
Dünyaya nur seli yayan Günəşi
Buludlar dalından boylanan gördüm!

Ruhuma çilənsin qoy yaz yağışı,
Gətirmə boranı, gətirmə qışı,
Çoxdur bu dünyanın gülü, naxışı,
Laləni düzlərdə bağrı qan gördüm!
Bir əlin dəyəri, qiyməti azdı,
İndi yaz fəslidi, qəlbim ayazdı,
Yenə Araz həmin dərdli Arazdı,
Onu dalğın-dalğın dolaşan gördüm!
Qarışır dağların çeni, dumanı,
Tikanlı məftillər kəsir aranı,
Qaldırın ayağa Azərbaycanı,
Kədərə bükülü bir hicran gördüm!
Uzanar yollara ana əlləri,
Uzanar yollara - Təbrizə sarı,
Qırın məftilləri, sökün hasarı,
Təbrizlə Bakını qovuşan gördüm!

*16 may 2013-cü il*